Mədəni-maarif.-2005.- №3





# "RAST"A DAXİL OLAN MUĞAMLAR

"Rast" ailəsinə bir sıra muğamlar aiddir: "Mahur-Hindi", "Orta-Mahur", "Bayatı Qacar", "Dügah" dəstgahları məhz "Rast"ın variantlarıdır. Bu muğamlar öz quruluşu və musiqi məzmunu baxımından bir-birinə çox uyğundur.

Maraqlıdır ki, onların məqam - lad əsası da eynidir. Belə ki, adlarını çəkdiyimiz muğamların hamısı bir lada -"Rast" ladına əsaslanır. Lakin kök məsələsinə gəldikdə hər muğamın öz müstəqil kökü var. Musiqi nəzəriyyəçilərinin təbiri ilə desək, hər muğamın öz tonallığı mövcuddur. "Rast" muğamı-"sol", "Mahur-hindi"-"do", "Orta Mahur" - "fa", "Bayatı Qacar" - "si-bemol", "Dügah" - "mi-bemol" "Rast" tonallığında çalınıb-oxunur.

## "ŞUR"

"Şur" adlı muğama nə ərəb, nə türk, nə də Orta Asiya şifahi-professional musiqisində təsadüf edilir. Bu ada həmçinin orta əsr cədvəllərində də rast gəlinmir. "Şur" təkcə İran və Azərbaycanda şifahi-professional musiqinin bir dəstgahıdır.

"Şur" Azərbaycanda əsas muğam dəstgahlarından ikincisidir. Muğam dəstgahları içərisində "Şur" ən sanballı, çoxtərkibli, irihəcmli dəstgahdır.

"Şur" aşağıdakı şöbə və guşələrə malikdir. "Dəramədi-Şur", "Mayeyi-Şur", "Muyə", "Bayatı-Türk", "Şikəsteyi-Fars", "Nişibi-Fəraz", "Səmayi-Şəms", "Hicaz", "Sarənc", "Qəməngiz", "Şahnazi-Şəq", "Şahnazi-Kürd", "Dilkəş", "Səlmək" , "Busəlik" , "Şur" .